# Münasibətlər tarixi köklərə bağlıdır

## *Alman-Azərbaycan Dostluq Cəmiyyəti xalqlarımız arasında əməkdaşlıq əlaqələrini genişləndirir*

Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu dövlət başçısı İlham Əliyevin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, perspektivlərə hesablanmış xarici siyasətinin uğurla davam etdirməsi ilə bağlıdır. Tolerantlığı ilə seçilən Azərbaycanda müxtəlif xalqların nümayəndələri artıq icma halında, birgəyaşayış şəraitində gələcəklərini qurublar. Bundan daim qürurla söz açan azsaylı xalqlar ölkəmizi əsl multikulturalizm məkanı hesab edirlər.



Dünyanın mədəni xalqlarından biri kimi tanınan almanların da taleyi Azərbaycanla sıx bağlıdır. Həyatlarının ağır dönəmlərində, daha doğrusu, 1941-1945-ci illər müharibəsi dövründə sovet qoşunları tərəfindən əsir götürülən almanların bir qismi ölkəmizə, daha dəqiq desək, Gəncəbasara göndərilmişdi. Yüz illər boyu burada formalaşmış, milli-mənəvi dəyər statusu almış adət-ənənələrimiz ölkəmizi özlərinə ikinci vətən sayan bu insanların da diqqətindən yayınmamışdı. Müharibənin acısını ömür boyu daşıyan almanlar Azərbaycana bağlılıqlarını sonralar daha bariz şəkildə göstərdilər.

İllər keçdi. Burada doğulan uşaqlar Azərbaycanı qanı-canı ilə sevməyə başladılar. Çünki onlar burada doğma vətənlərində olduğu kimi azad ölkənin vətəndaşları sayıldılar. Bu münasibət tarixi gerçəkliklərə əsaslandığından qırılmaz dostluq tellərinə çevrildi. Almaniya-Azərbaycan münasibətlərinin hazırkı vəziyyəti də bunu təsdiqləyir.

Ölkə Prezidenti İlham Əliyevin ölkəmizin beynəlxalq əlaqələrinin inkişafında diaspor təşkilatlarının üzərinə böyük məsuliyyət düşdüyünü dəfələrlə və xüsusi olaraq qeyd etmişdir. Almaniyanın Bonn şəhərində 2011-ci ildən fəaliyyət göstərən Alman-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Naibə Hacıyevanın qənaətincə, bu istiqamətdə görülən işlər Azərbaycanın dünya miqyasında çox etibarlı tərəfdaş kimi tanınmasında mühüm əhəmiyyət kəsb edir: "Bu baxımdan bizim cəmiyyətin də üzərinə böyük məsuliyyət düşür. Dövlət başçısı İlham Əliyev Dünya Azərbaycanlılarının IV Qurultayında diasporla bağlı söylədiyi fikirlər, göstərdiyi istiqamət hər bir təşkilatın ümumi işinin əsasını təşkil etməlidir. Əlbəttə, Azərbaycan tarixin sərt sınaqlarından mətinliklə çıxaraq inkişaf yoluna qədəm qoyub. Bu, Qərbdə hamı tərəfindən o qədər də könül açıqlığı ilə qəbul edilmir. Odur ki, ölkəmizin bütün istiqamətlərdə inkişafını əngəlləməyə çalışan antiazərbaycançı şəbəkənin böhtan xarakterli, erməni lobbisinin mövqeyini əks etdirən təbliğatına qarşı aparılan mübarizə diaspor qurumlarının fəaliyyətinin prioritetlərindən ən vacibidir".

Məqsədi Avropa ölkələrinin birində xalqımızın tarixi keçmişini, bugününü, zəngin mədəniyyətini və mətbəxini təbliğ etmək olan Naibə Hacıyeva bu istəyinə 2008-ci ildə çatıb. Bonn şəhərində Azərbaycan gecələri, Novruz bayramı, 20 Yanvar - Qara Yanvar dəhşətlərinə, Xocalı soyqırımına həsr edilən yığıncaqlar keçirib. Yalnız ləziz mətbəximizi deyil, ilk növbədə, zəngin mədəniyyətimizi geniş şəkildə təbliğ etməyə, bu qərib diyarda soydaşlarımızı teztez bir araya toplayaraq adət-ənənələrimizi unutmamağa çalışıb. O, məqsədinə tam nail olmaq üçün fəaliyyətini siyasi istiqamətə yönəldərək 2011-ci ildə Alman-Azərbaycan Dostluq Cəmiyyəti yaradıb. Əsas məqsəd almanlarla dostluğumuzu daha da möhkəmləndirmək, həmçinin adət-ənənələrimizi onlara daha yaxından tanıtmaqdır: "Almanlara təkcə yeməklərimizi, milli rəqslərimizi, ana dilimizi öyrətməmişik. Almanlar bizim musiqilərimizi, xüsusən də xalq mahnılarımızı çox həvəslə dinləyirlər. Ona görə də deyirlər ki, musiqi sərhəd tanımır. Mədəniyyət, incəsənət xalqların ümumi dilidir. Tədbirlərimiz ictimai-siyasi və mədəni xarakterli olduğu üçün ümumi məqsədimizi ifadə edir. Bu tədbirlərdə daim fəal iştirak edən "Bakı" ansamblı da orada yaşayan soydaşlarımızın istedadlı gənclərinin məharətini göstərir. Yeri gəlmişkən, cəmiyyətin nəzdində müxtəlif Azərbaycan dərnəkləri də fəaliyyət göstərir. Ümumi məqsəd xalqımızı olduğu kimi təqdim etmək - Azərbaycan həqiqətlərini burada tanıtmaq və Almaniya cəmiyyəti ilə sıx əməkdaşlıq əlaqələrini yaratmaqdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, bəzən Azərbaycan həqiqətlərinə kölgə salmaq cəhdləri olur ki, bu da Vətəndən uzaqlarda antiazərbaycançı şəbəkənin mənfur siyasətinin təsiri altına düşən nadanlardan istifadənin nəticəsidir. Azərbaycan cəmiyyətində mövqeyini itirmiş ayrı-ayrı Vətənə xilaf çıxanların faktsız və böhtan xarakterli təbliğatları, əlbəttə, dövlətimizin dünyadakı mövqeyinə heç bir xələl gətirə bilməz: "Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Frankfurt şəhərində diaspor nümayəndələrinin keçirilən müşavirəsində Avropa Azərbaycanlıları Konqresinin bəyanatı qəbul olunub. Bəyanatda Azərbaycanın daxili siyasətinə aid məsələlərin xarici ölkələrdə yaşayan bəzi "soydaşlarımız" tərəfindən mənfi mənada müzakirə obyektinə çevrilməsindən də narahatlıq ifadə edilib. Sənəddə qeyd edildiyi kimi, xaricdə yaşayan azərbaycanlıların mütləq əksəriyyəti Azərbaycan dövlətinin tutduğu yolun düzgün, ədalətli, haqq və uğurlu olduğuna inanır. Almaniya ilə Azərbaycanı dostluq münasibətləri birləşdirir. Lakin düşmən heç vaxt öz çirkin niyyətindən daşınmayıb. Burada da iki dost xalqın arasına xəyanətkarlıq toxumu səpməyə cəhd göstərir. Erməni lobbisi o qədər güclü olmasa da, Almaniya Parlamentində qondarma, saxta "erməni soyqırımı"nın tanınması ürəkaçan hal deyil. Bu, ilk növbədə, hər iki dost ölkənin münasibətlərinə erməni xəyanətidir. Təbii ki, alman ictimaiyyəti və xalqı heç zaman saxta soyqırımı tanımayacaq, qəbul edilən qərar kağız üzərində qalıb əhəmiyyətini itirəcək. Həmin qərara bizim təşkilat da öz etirazını kəskin şəkildə bəyan edib".

Almaniyadakı Azərbaycan diaspor təşkilatlarının hamısının məqsədi eynidir. Azərbaycan həqiqətlərini, Dağlıq Qarabağ problemi və Xocalı soyqırımını burada tanıtmaq və Almaniya cəmiyyəti ilə sıx əməkdaşlıq əlaqələrini genişləndirmək. Son illər Azərbaycan dövləti tərəfindən diaspora ayrılan diqqət və qayğı Almaniyadakı təşkilatların fəaliyyətində də əhəmiyyətli dərəcədə hiss olunur. Onlar Azərbaycan həqiqətlərinin tanıdılmasında və ölkələrimiz arasında mədəni əlaqələrin inkişafında çox böyük rol oynayır. Ümumiyyətlə, hər bir azərbaycanlının burada bir məqsədi var: Vətənimizi Almaniyada layiqincə təmsil etmək, hər yanda azərbaycanlı olaraq ölkəmizin adını uca tutmaq və daha yüksək nailiyyətlər əldə etmək! Azərbaycanlıların Almaniyada Kordinasiya Mərkəzinin fəaliyyəti bu istiqamətdə çox nəzərə çarpır. Mərkəz daim öz üzvlərinə Almaniyada baş verən mədəni və ictimai hadisələri çatdırır və lazım gəldikdə ölkəmiz haqqında gedən yanlış məlumatlara kəskin şəkildə etirazını bildirir. Bundan əlavə, burada yaşayan gənclərimiz tərəfindən tələbə və elm adamları üçün yaradılan təşkilatlar da az deyil. Onlar azərbaycanlı gənclərin bir araya toplaşmasında, elmi diskussiya aparmasında təhsil və digər məsələlərlə bağlı problemlərin həll edilməsində böyük rol oynayır.

Alman-Azərbaycan Dostluq Cəmiyyətinin keçirdiyi tədbirlərdə türk diasporunun nümayəndələrinin müntəzəm və davamlı iştirakı, təbii ki, erməni lobbisini əndişələndirməyə bilməz. Azərbaycanlıların diaspor qurumları arasında problemlər yaratmaq istəyən təşkilatların sayı da az deyil. Lakin həmsöhbətimiz xüsusi olaraq qeyd etdi ki, bu, heç zaman respublikamızın dünyada olduğu kimi tanıdılmasına mane ola bilməz. Çünki bu gün Azərbaycan dünyada daha fəal mövqe nümayiş etdirir. Burada bir sıra amillər var ki, onlardan ən əsası, paytaxtımızda son illər keçirilən dünyəvi beynəlxalq tədbirlərdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***